BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2012*

**UOT 327; 930. 22**
**UOT 94 “19/...”**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZIDENTİ İLHAM ƏLİYEVİN XARİCİ SİYASƏTİNDƏ ALMANİYANIN YERİ

**S.S.MƏHƏRRƏMOVA**
***Sumqayıt Dövlət Universiteti***
***Oguz.Gunhan@gmail.com***

*İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra bütün sahələrdə varislik prinsiplərini davam etdirərək, Heydər Əliyev siyasi kursuna sadiq qalmışdır. Prezident İlham Əliyev də xarici siyasətində Almaniya ilə əlaqələrə xüsusi önəm verir. Prezident İlham Əliyev 24 – 26 avqust 2004-cü ildə, 22-23 sentyabr 2006-cı ildə, 14 – 17 fevral 2007-ci ildə Almaniyaya səfər etmişdir. 2007-ci il fevralın 18-də isə AFR-in XİN-i F.V.Ştaynmayer Azərbaycana rəsmi səfər etmiş və bir sıra görüşlər keçirmişdir. Səfərlərdə əsas məqsəd iki ölkə arasında bütün əməkdaşlıq əlaqələrini daha da dərinləşdirmək olmuşdur.*

**Açar sözlər:** siyasət, varislik, sabitlik, inteqrasiya, inkişaf

2003-cü ildə olduğu kimi, 2008-ci il oktyabrın 15-də də Azərbaycan xalqı H.Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevə səs verdi. Bu haqda Azərbaycan Prezidenti İlham Əliyev demişdir: “Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək, Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur” (16, 18).

Heydər Əliyev kimi dahi şəxsiyyətdən sonra Azərbaycana rəhbərlik xalqın istəyi ilə onun layiqli davamçısı İlham Əliyevə həvalə edildi. İlham Əliyev respublikanın birinci postu - prezidentlik kürsüsünə birdən-birə gəlməmişdir. İlham Əliyevin bütün başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünyamiqyaslı mühüm qərarlar qəbul edən say-seçmə ölkələr sırasına daxil etməkdir. O, fəalliyyətində ardıcıl və praqmatikdir, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, əksinə, geniş baxışlara malik siyasətçidir (15, c.II, 75). Bir siyasətçi kimi İlham Əliyev çoxlarından fərqli olaraq, Azərbaycanın və bütün dünya ölkələrinə səpələnmiş Azərbaycan xalqının həm daxili, həm də xarici siyasət problemlərini dərindən bilən siyasətçidir. Azərbaycan dövlətinin qurulmasında yaxından iştirak edib, dahi Heydər Əliyev şəxsiyyətinin ən

yaxın silahdaşı olub. O, bu misiyyanı bu gün də uğurla davam etdirir, Yeni Azərbaycanın qurulmasında fəal iştirak edir (13, 17, 4-14, 14, 118-123).

Yeni Azərbaycanın – yeni liderinə ən böyük qiyməti müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev 2003 –cü il 1 oktyabr tarixli müraciətində vermişdir. Dahi şəxsiyyət cənab İlham Əliyevi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili, təşəbbüskar bir şəxsiyyət kimi dəyərləndirmiş və "...Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" (12) inamını ifadə etmişdir.

İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra bütün sahələrdə varislik prinsiplərini davam etdirərək, Heydər Əliyev siyasi kursuna sadiq qalmışdır. Bunu andiçmə mərasimində "Milli, dini, siyasi mənsubiyyətindən asılı olmayaraq - Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacam" (16, 19, 251) sözləri ilə ifadə etmişdir.

İlham Əliyev siyasətinin məqsədi Azərbaycanı rəqabət, qarşıdurma yox, əməkdaşlıq meydanına çevirməkdir. Bu barədə Prezident İlham Əliyev demişdir: "Azərbaycan qarşıdurma məkanına, rəqabət meydanına çevrilməyəcəkdir. Bu gün Azərbaycan dünyada əməkdaşlıq, işbirliyi, iqtisadi layihələr, sosial məsələlərin həlli və dünyada sivilizasiyalararası dialoqun gücləndirilməsi üçün əvəzolunmaz rol oynayır. Azərbaycan bəlkə nadir ölkələrdən biridir ki, bizim xarici siyasətimiz tam şəkildə müstəqildir" (9).

Prezident İlham Əliyev də xarici siyasətində Almaniyaya xüsusi önəm verir. Azərbaycanın Avropa strukturlarına və Avroatlantik məkana inteqrasiyasında AFR-in böyük dəstəyinə ehtiyacı var. Bu barədə İlham Əliyev hələ Baş Nazir postunu tutarkən 2003-cü il oktyabr ayının 2-də Bakının Xətai rayonu ərazisində yerləşən "Eires-Azərbaycan" Almaniya-Azərbaycan birgə müəssisəsinin açılış mərasimindəki nitqində demişdir: "...Azərbaycanın Avropa ailəsinə inteqrasiyası məsələsində də Almaniyanın dəstəyi bizə lazım olacaqdır və biz bu dəstəyi hiss edirik" (8, 206-208).

2004-cü il avqustun 24-dən 26-dək Respublika Prezidenti İlham Əliyev AFR-ə ilk rəsmi səfər etmişdir. Səfərdə əsas məqsəd iki ölkə arasında bütün əməkdaşlıq əlaqələrini daha da dərinləşdirmək olmuşdur. Azərbaycan Prezidenti AFR-də bir sıra rəsmi görüşlər keçirmişdir. Belə ki, avqustun 25-də Prezident İlham Əliyev AFR-in Prezidenti Horst Kölerlə, Kansler G.Şröderlə, XİN-i Yoşka Fişerlə, Bundestaqın Almaniya-Qafqaz qrupunun rəhbəri Kristof Berqnerlə və Almaniya parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Fölker Rühe görüşmüşdür. Azərbaycan Prezidenti İlham Əliyevin AFR-ə ilk rəsmi səfəri avqustun 26- da başa çatmışdır. Səfər siyasi və iqtisadi baxımdan səmərəli olmuşdur. Belə ki, siyasi cəhətdən ən mühüm nəticələrdən biri AFR-in müxtəlif rəsmi siyasi qurumları ilə görüşlərindən sonra bütün rəhbər dairələrin nümayəndələrinin Almaniyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyini təkrarlaması olmuşdur. Prezident İlham Əliyev Almaniya siyasi dairələrinin "Azərbaycanın ərazi bütövlüyü

beynəlxalq hüquq normaları çərçivəsində münaqişənin ədalətli sülh yolu ilə həll edilməlidir” bəyanatından razı qalmışdı (11).

Azərbaycan rəhbəri İlham Əliyev Avropa və Avroatlantik məkana inteqrasiya siyasətinə, eləcə də Almaniyaya verdiyi xüsusi önəmin göstəricisi kimi sentyabrın 22- də Berlində Beynəlxalq Bertelsmann-2006 forumunun işində iştirak etmək üçün AFR-ə səfər etmişdir. Form hər iki ildən bir Karl Bertelsmann Fondu tərəfindən təşkil edilir. Formun məqsədi Avropanın ali siyasi, iqtisadi, mədəni və mətbuat dairələri arasında qitənin gələcəyinə dair dialoqun keçirilməsidir. 22-23 sentyabr 2006-cı il Forumunda isə əsasən genişlənmiş Avropanın siyasi-iqtisadi perespektivləri mövzusu müzakirə edilmişdir və belə forumların təşkili Ümumavropa təşəbbüslərinin həyata keçirilməsində mühüm önəm daşıyır. Beynəlxalq Bertelsmann Formu dünyada çox böyük nüfuza malikdir. Bunu onun işində iştirak edən 20-dən artıq ölkənin dövlət və hökumət başçıları, parlament sədrləri, xarici işlər nazirlərinin iştirakı bir daha sübut edir. Forumda Avropanın gələcəyi barədə geniş fikir mübadiləsi aparılmış, Ümumavropa iqtisadi siyasətinin istiqamətlərini müəyyənləşdirməyin, uzun sürən münaqişələrin həlli və aradan qaldırılmasının vacibliyinin Avropanın inkişafı üçün xüsusi önəm daşıdığı qeyd edilmişdir (6). Avropanın enerji təhlükəsizliyinin təmin olunması, Yaxın Şərq və dünyanın digər bölgələrində baş verən hadisələr, elmi-tədqiqat proqramları, iqtisadi-siyasi, hüquqi layihələrin həyata keçirilməsi, təhsil sistemində islahatların aparılması ilə bağlı ümumu müzakirələrdən sonra forumun “Balkanlar və Qara dəniz bölgəsi Avropa üçün lakmus kağızı kimi” mövzusunda birinci iclası keçirilmişdir. İclasın işində Azərbaycan Prezidenti İlham Əliyev iştirak etmiş və sualları cavablandırmışdır. Belə ki, ölkə rəhbəri Azərbaycanın maraqları, çoxşaxəli, qısa və uzunmüddətli xarici siyasət strategiyasının olmasını bildirmişdir. Daha sonra form “Demokratiya çağırışı” mövzusunda müzakirələrlə öz işini davam etdirmişdir. Prezident İlham Əliyev müzakirələrdə iştirak edərək Azərbaycanın demokratikləşməyə doğru keçdiyi yol haqqda ətraflı bəhs etmişdir (10).

2007-ci il fevralın 14-də ölkə rəhbəri İlham Əliyev AFR-ə yenidən rəsmi səfər etmişdir. Elə həmin gün Prezident İlham Əliyev ilə AFR Kansleri A.Merkel arasında görüş keçirilmiş, iki ölkə və Avropa İttifaqı arasında mövcud olan əlaqələrin inkişaf perespektivlərindən, Azərbaycanda gedən iqtisadi tərəqqidən, bütün sahələrdə iqtisadi islahatların və demokratikləşmə prosesinin uğurla həyata keçirilməsindən bəhs edilmişdir. Almaniya ilə Azərbaycan arasında münasibətlərin səviyyəsindən razılıq ifadə edilərək, ölkələrin potensialına uyğun olaraq gələcəkdə əlaqələrin daha da möhkəmlənəcəyinə inam ifadə edilmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, bir sıra regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılmış, Azərbaycanın Avropanın enerji təhlükəsizliyi siyasətindəki roluna toxunulmuş, enerji sahəsində olan əməkdaşlığın yeni səviyyəyə qalxması üçün qarşılıqlı tədbirlərin görülməsi qeyd edilmişdir (2). Fevralın 15-də dövlət başçısı AFR xarici işlər naziri F.V.Ştaynmayerlə, Bundesratın sədri Harld

Rinqştorffla, Berlin şəhərinin meri Klaus Voveraytla və Mixael Zukkov fondunun prezidenti M.Zukkov və sabiq müdafiə naziri Fölker Ruhe ilə Almaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin sədrləri (3), Almaniyanın "Şərqi və Mərkəzi Avropa Birliyi" Cəmiyyətinə üzv olan bir sıra şirkətlərin idarə heyətlərinin rəhbərləri və nümayəndələri ilə görüşmüş (4), Konrad Adenaur Fondu tərəfindən təşkil olunmuş "Azərbaycan XXI əsrdə - inkişaf və perspektivlər" mövzusunda təşkil olunmuş geniş müzakirələrdə iştirak etmişdir (7). Prezident İlham Əliyev fevralın 16-da "Almaniya İqtisadiyyat Evi"ndə İqtisadiyyat və yeni texnologiyalar naziri Mixael Qlos ilə, Baden- Vürtemberq Federal Əyalətinin Baş naziri Günter Ettinger ilə görüşmüş və daha sonra isə Azərbaycan-Almaniya biznes forumunda iştirak etmişdir. Biznes forumda qeyri-neft sektorunun müxtəlif sahələrinə aid bir neçə saziş imzalanmışdır. Bunlardan "Bakıelektrikşəbəkə" ilə "Simens AG" arasında imzalanmış və 30 milyon avro dəyəri olan Azərbaycanda elektrik stansiyasının tikilməsini nəzərdə tutan saziş, Azərbaycanın "İmprotex Tracks and Buses" şirkəti ilə "Liebnerr-Export AG" şirkəti arasında eksklüziv təmsilçilik, "Man" şirkəti ilə 3 milyon avro dəyərində nəqliyyqt vasitələrinin alışı, "Faun" şirkəti ilə eksklüziv təmsilçilik və 2,3 milyon avro dəyərində nəqliyyat vasitələrinin alışı, "Naxçıvan mebel fabriki" ilə Almaniyanın "Bio Ethanol Arneburq" şirkəti ilə Azərbaycanda birgə müəssisənin yaradılması haqqında saziş, "ADES" Azərbaycan-Almaniya birgə müəssisəsi Almaniyanın "MarkAT" şirkəti ilə əməkdaşlıq barədə memorandum, "Bakı Tələbat Qabları" Almaniyanın "Remax" şirkətindən 450 min avro dəyərində press-formaların alınması haqqında, "Karvan-L" şirkəti "Clariant İberica SA" şirkətinə 250 min ABŞ dolları məbləğində kimyəvi məhsulların satışı barədə saziş imzalanmış, bir sıra Azərbaycan və Almaniya şirkətləri arasında əməkdaşlıq haqqında ilkin razılıq əldə olunmuş (5), AR Hökuməti və AFR Hökuməti arasında maliyyə əməkdaşlığı (Kreditlərin zəmanəti fondunun yaradılması) haqqında Saziş (20) imzalanmışdır.

Prezidentin AFR-ə rəsmi səfəri siyasi və iqtisadi nəticələri ilə əhəmiyyətli olmuşdur.

2007-ci il fevralın 18-də isə AFR-in xarici işlər naziri F.V.Ştaynmayer Azərbaycana rəsmi səfər etmiş və bir sıra görüşlər keçirmişdir. 2007-ci il fevralın 19-da Prezident İlham Əliyev AFR-in xarici işlər naziri F.V.Ştaynmayeri qəbul etmişdir. Azərbaycan xarici işlər nazirliyində nümayəndə heyətləri arasında ikitərəfli görüşlərdən sonra birgə mətbuat konfransında bildirilmişdi ki, tərəflər siyasi, iqtisadi, mədəni əlaqələr və ikitərəfli münasibətlər, regionda təhlükəsizliyin təmin olunması, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesi, Avropa İttifaqı ilə əməkdaşlığın davam etdirilməsi və 2008-ci ilin "Almaniyada Azərbaycan mədəniyyəti ili" olması ilə əlaqədar keçiriləcək tədbirlər və neftçıxarma, neft emalı, neft avadanlıqları ilə təchizat və başqa sahələrdə ARDNŞ-lə Almaniyanın bir sıra şirkətləri arasında işgüzar əlaqələrdən, Avropa İttifaqının enerji təhlükəsizliyi, enerji mən-

bələrinin şaxələndirilməsi və enerji daşıyıcılarının nəqli baxımından Azərbaycan neft-qaz boru kəmərlərinin perspektiv imkanları müzakirə edilmişdir (1).

Həyata keçirilən uğurlu xarici siyasət kursunun nəticəsi idi ki, siyasi və iqtisadi qüdrətinə görə dünyanın böyük dövlətlərindən olan Almaniya Azərbaycanın tərəfdaşlarından birinə çevrilmiş, respublikamızın ədalətli mövqeyini daim dəstəkləmişdir.

**ƏDƏBİYYAT**


1. Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2007, 20 fevral.
2. Azərbaycan –Almaniya münasibətləri daha sürətlə inkişaf edəcəkdir Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2007, 16 fevral.
3. Azərbaycan – Almaniya münasibətləri daha sürətlə inkişaf edəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri. Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyada fəaliyyət göstərən Azərbaycan Cəmiyyətlərinin sədrləri ilə görüşü. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2007, 18 fevral.
4. Azərbaycan – Almaniya münasibətləri daha sürətlə inkişaf edəcəkdir Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri. Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya şirkətlərinin rəhbərləri ilə görüşü. AzərTAc. "Azərbaycan" qəz., Bakı. 2007, 18 fevral.
5. Azərbaycan – Almaniya münasibətləri daha sürətlə inkişaf edəcəkdir Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri. Azərbaycan-Almaniya biznes forumu. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2007, 17 fevral.
6. Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri. Berlində Beynəlxalq Bertelsmann-2006 forumu işə başlamışdır. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2006, 23 sentyabr.
7. Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın Konrad Adenaur Fondu tərəfindən təşkil olunmuş "Azərbaycan XXI əsrdə-inkişaf və perspektivlər" mövzusunda təşkil olunmuş geniş müzakirələrdə iştirak etmişdir. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2007, 20 fevral .
8. Azərbaycan 2003: İnkişaf strategiyasında yeni mərhələ. Bakı: Azərbaycan Respublikası Prezidenti Aparatının Katibliyi, 2005, 520 s.
9. Azərbaycanın uğurlu xarici siyasəti onun böyük siyasi və diplomatik qələbəsidir. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2008, 8 iyul.
10. Berlində Beynəlxalq Bertelsmann-2006 formunun açılışı. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2006, 26 sentyabr.
11. Gerhard Şröder:Almaniya Azərbaycanın tərəfdaşıdır, Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və tanıyacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri. AzərTAc. "Azərbaycan" qəz., Bakı, 2004, 26, avqust.
12. Heydər Əliyev. Azərbaycan xalqına müraciət. "Xalq qəzeti". Bakı, 2003, 3 oktyabr.
13. Mahmudov Yaqub. İlham Əliyev-dünya səviyyəsinə ucalmış müasir siyasətçi. "Azərbaycan" qəz., Bakı, 2003, 26 yanvar.
14. Mahmudov Y. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, 135 s.
15. Mehdiyev Ramiz. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. II c., Bakı: XXI-Yeni Nəşrlər Evi, 2007, 672 s.
16. Müdrik Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti bundan sonra da güclənəcək, zənginləşəcək və hərtərəfli inkişaf edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə mərasimində nitqi. "Xalq qəzeti", Bakı, 2003, 1 noyabr.

17. Səlimxanlı Dəyanət. Diplomatiyadan siyasi olimpə qədər yol: bu yol İlham Əliyevin yoludur. Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, 158 s.
18. Son beş ildə əhəmiyyətli dərəcədə güclənmiş Azərbaycan gələcəyə ümidlə, nikbinliklə baxır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi. "Azərbaycan" qəz., Bakı, 2008, 25 oktyabr.
19. Андриянов В.И., Мираламов Г.Ф. Ильхам Алиев. М.: Молодая гвардия, 2007, 396 с.
20. www.mfa.gov.az/images/stories/Countries/Almaniya/2.pdf.Azərbaycan Respublikas ilə Almaniya Federativ Respublikası arasında imzalanmış sənədlər

## МЕСТО ГЕРМАНИИ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИЛЬХАМА АЛИЕВА

**С.С МАГЕРРАМОВА**

### РЕЗЮМЕ

После избрания Ильхама Алиева президентом Азербайджана продолжая принципы наследования во всех областях, он остался верен политическому курсу Гейдара Алиева. Президент Ильхам Алиев во внешней политике придает особое значение отношениям с Германией. Президент Азербайджана Ильхам Алиев нанес ряд визитов в Германию 24 - 26 августа 2004 года, 22-23 сентября 2006, 14 - 17 февраля 2007 года. А 18 февраля 2007 года министр иностранных дел ФРГ А.В.Штейнмеер нанес официальный визит в Азербайджан и провел здесь ряд встреч. Основной целью этих визитов являлось развитие сотрудничества во всех областях между двумя странами.

**Ключевые слова:** политика, преемственность, стабильность, интеграция, развитие

## THE PLACE OF GERMANY IN THE FOREIGN POLICY OF THE PRESIDENT OF THE AZERBAIJAN REPUBLIC, ILHAM ALIYEV

**S.S MAHARRAMOVA**

### SUMMARY

Ilham Aliyev, after being elected the President of the Republic developed the principles of inheritance in all areas and remained loyal to Heydar Aliyev's political course. In his foreign policy, President Ilham Aliyev attaches a special importance to the relations with Germany. President Ilham Aliyev paid visits to Germany on August 24-26, 2004, September 22-23, 2006, February14 – 17, 2007. On February 18, 2007, the Ministry of Foreign Affairs of the FRG F.V.Stainmayer paid an official visit to Azerbaijan and held a number of meetings there. The main goal of all the visits was to deepen cooperation between the two countries.

**Key wordrs:** policy, succession, stability, integration, development,